**Ölkənin rəsmi şəxslərinin tərcümeyi-halları**

**Uruqvay Şərq Respublikasının Prezidenti**

**Tabare Vaskes Rosasın**

17 yanvar 1940-cı ildə Montevideoda anadan olmuşdur;

1972-ci ildə Respublika Universitetinin Tibb fakültəsini bitirmiş, onkoloq və radioterapeft ixtisaslarına yiyələnmişdir;

1978-ci ildə Atletik İnkişaf Klubunun vitse-prezidenti, 1979-cu ildə isə prezidenti seçilmişdir;

1982-ci ildə Parisin Qustavo Russi Universitetində ixtisası üzrə təhsil almışdır;

1985-ci ildən Respublika Universitetinin Onkologiya şöbəsini Radioterapiya bölməsində baş professordur;

1994-cü ildən "Tərəqqipərvər Görüş", 1996-cı ildən Geniş Cəbhə" partiyasının lideridir;

1994-99-cu illərdə prezident seçkilərində iştirak etmişdir;

2004-cü il 31 oktyabr prezident seçkilərində Tərəqqipərvər Görüş-Geniş Cəbhə-Yeni Əksəriyyət koalisiyası tərəfindən prezidentliyə namizəd kimi irəli sürülmüş və qalib gəlmişdir;

1 mart 2005-ci ildən səlahiyyətlərinin icrasına başlamışdır.

Evlidir, üç övladı var.

**Uruqvay Şərq Respublikasının Xarici İşlər Naziri Reynaldo Qarqano**

26 iyul 1934-cü ildə Paysandu şəhərində anadan olmuşdur;

1956-cı ildən Sosialist Partiyasına daxil olmuşdur;

1964-74-cü illərdə həmin partiyanın həftəlik dərgisi olan “El Sol”-un baş redaktoru, 1970-73-cü illərdə isə “ El Oriental” qəzetinin baş redaktoru olmuşdur;

1974-84-cü illərdə Latın Amerikası ölkələri və İspaniyada mühacirətdə olmuş, bu müddətdə İspaniya Sosialist Fəhlə Partiyası ilə yaxından əməkdaşlıq etmişdir;

1984-cü ildən Uruqvay Senatını üzvüdür;

2001-ci ildən Uruqvay Sosialist Partiyasının sədridir;

1 mart 2005-ci ildən Uruqvay Respublikasının x